# Təhsil Problemləri İnstitutunun 2015-ci il nəşrləri

**2015-ci ildə Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasından və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində fəaliyyət göstərmiş, 3 monoqrafiya, 25 dərslik və dərs vəsaiti, 6 tədris proqramı, 10 metodik vəsait və 154 jurnal məqaləsi ilə müəllimlərin maariflənməsi və inkişafına dəstək vermişdir. Həmin nəşrlərin 8-i haqqında qəzetimizin ötən sayında oxuculara məlumat vermişdik. Növbəti 10 nəşri təqdim edirik.**




**"Təhsil işçilərinin 2015-ci il sentyabr konfransları üçün tövsiyələr". Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 152 səh.**

*Nəşrə hazırlayanlar: İlham Cavadov, Bibixanım İbadova.*
*Elmi redaktor: Ənvər Abbasov.*

Kitaba təhsil işçilərinin 2015-ci il konfransları üçün hazırlanmış tövsiyələr daxil edilmişdir. Tədris ilinin əvvəlində hazırlanmış bu tövsiyələr ümumi istiqamətverici xarakter daşımaqla təhsil müəssisələrinin tədris-metodik təminatına uyğun daha konkret məzmunu ilə xüsusi əhəmiyyət kəsb edir. Ondan nəinki tədris ilinin başlanğıcında illik planlaşdırma zamanı, hətta bütün il boyu cari fəaliyyət prosesində də istifadə edilməsi tövsiyə olunur.

Tövsiyələrdə ümumi təhsil fənlərinin tədrisi, təhsilin idarə olunması, istedadlı şagirdlərlə iş, məktəbə psixoloji xidmət, inklüziv, xüsusi təhsil və s. məsələlər əhatə olunmuşdur.

Tövsiyələr 2015-ci ildə müəllimlərin sentyabr konfranslarının səmərəli təşkil olunmasına və keçirilməsinə dəstək məqsədilə hazırlanmışdır. Ondan məktəbəqədər təhsil, ümumtəhsil, peşə-ixtisas təhsili məktəblərində, təhsil şöbələrində işləyən pedaqoji işçilərin, o cümlədən müəllim və tərbiyəçilərin, pedaqoji araşdırmalarla məşğul olan tədqiqatçıların və başqalarının istifadə edə biləcəyi nəzərdə tutulmuşdur.




**"Riyaziyyat-II hissə. Həndəsə (IX-XI sinif şagirdləri və abituriyentlər üçün vəsait)". Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 244 səh.**

*Müəllif: Ələddin Məmmədli.*
*Elmi redaktor: İbrahim Məhərov.*

IX-XI sinif şagirdləri və abituriyentlər üçün nəzərdə tutulmuş bu kitabın məzmunu həndəsə kursunun planametriya və stereometriya bölmələrinə daxil olan 10 fəsildən və 28 paraqrafdan ibarətdir. Vəsaitin hər paraqrafına aid zəruri nəzəri biliklər həmin paraqrafın daxilində sadədən mürəkkəbə doğru nömrələnməklə verilmişdir. Nəzəri biliklər sistemli şəkildə, yığcam və sadə dillə şərh olunur. Vəsaitdə həmçinin bəzi teoremlərin isbatı da verilmişdir. Oxucular üçün asan olsun deyə bəzi anlayışların izahında əyanilik təmin edilmişdir. Nəzəri biliklərin tətbiqini əks etdirən məsələ həlli nümunələri bilik və bacarıqların formalaşdırılması məqsədi daşıyır. Bu vəsaitdən istifadə etməklə ümumtəhsil məktəblərində tədris olunan həndəsə kursunu indiki qəbul imtahanları səviyyəsində 28 dərs müddətində öyrənmək olar.

IX-XI sinif şagirdləri və abituriyentlər üçün nəzərdə tutulmuş bu kitab uzun illik müəllim axtarışlarının nəticəsi olaraq xüsusi nəzəri və praktik əhəmiyyət daşıyır.




**"Müəllim hazırlığının aktual problemləri və modernləşdirilməsi". Bakı, Mütərcim, 2015, 216 səh.**

*Nəşrə hazırlayanlar: Müdafiə Mahmudov, Rüfət Hüseynzadə, Müseyb İlyasov, Vaqif Kərimov, Bəyimxanım Məmmədova.*
*Elmi redaktor: Qulu Novruzov.*

Kitabda müəllim hazırlığının kurikulumundan, müəllim hazırlığında yeni yanaşmalardan, ali və orta ixtisas təhsilində müəllim hazırlığı məsələlərindən, təhsil sistemində aparılan islahatların strateji istiqamətlərindən biri kimi müəllim hazırlığı sahəsində hüquqi-normativ bazanın yaradılmasından, müəllim hazırlığında fəaliyyət mexanizminin müəyyənləşdirilməsindən və s. məsələlərdən bəhs edilir. Orada müəllim hazırlığının müasir problemləri, onları yaradan səbəblər və həlli yolları şərh olunur. Kitabda həmçinin müəllim kadrlarına və ilkin müəllim hazırlığına verilən müasir tələblər nəzəri və praktik cəhətdən araşdırılmış, beynəlxalq kontekstdə bu problemə yanaşmalara münasibət bildirilmişdir.

Kitabdan doktorantlar, gənc tədqiqatçılar, təhsil üzrə mütəxəssislər və başqaları istifadə edə bilərlər.




**"Milli əxlaq və ailə etikası. Bakı, Mütərcim, 2015, 324 səh.**

*Müəllif: Akif Abbasov.*
*Elmi redaktorlar: Əbdül Əlizadə, Əjdər Ağayev.*

Dərslik dörd bölmədən ibarətdir. Birinci və ikinci bölmələrdə "Avesta"da, "Kitabi-Dədə Qorqud"da, islam dinində, Azərbaycan şifahi xalq yaradıcılığında, Nizami Gəncəvi və Nəsirəddin Tusinin, Azərbaycan maarifçilərinin əsərlərində əxlaqi təlimin mahiyyəti, mənəvi tərbiyə və milli-mənəvi dəyərlər araşdırılır, etikanın vicdan, yaxşılıq və xeyirxahlıq, mənəvi borc, şərəf və ləyaqət, namus, ismət, həya, məsuliyyət və s. kateqoriyalarına aydınlıq gətirilir. Bundan başqa, "Həyatın mənası və xoşbəxtlik nədir?" sualına cavab verilir. Azərbaycan vətəndaşlarının mənəvi simasını təşkil edən səciyyəvi xüsusiyyətlərin üzərində dayanılır.

Üçüncü və dördüncü bölmələrdə oğlanların və qızların qarşılıqlı münasibətlərinin mənəvi əsasları, müasir qız və qadınlıq, qız şərəfi, qadın isməti, müasir oğlan və kişilik, məhəbbət, sevənlərin davranış mədəniyyəti, nikah və ailə, ailənin mənəvi, psixoloji və iqtisadi əsasları, boşanma və onun nəticələri, ailə pedaqogikası və s. bu kimi məsələlər nəzərdən keçirilir.

"Milli əxlaq və ailə etikası" kursunun məqsədi milli əxlaqımızı, onun tələblərini əsas götürməklə şəxsiyyətdə özünütərbiyə, özünütəkmilləşdirmə tələbatı yaratmaqdan, ailə etikasının tələblərindən irəli gələn məhəbbətə, nikaha və ailəyə, ailə münasibətlərinə, uşaqların tərbiyəsi və təhsili, vətənin ləyaqətli vətəndaşları kimi yetişdirilməsinə ciddi və məsuliyyətlə yanaşmaq adəti, qabiliyyəti formalaşdırmaq, nikahın uğurlu, ailənin möhkəm olmasına, ailədə qarşılıqlı münasibətlərin qurulmasına nail olmaqdan ibarətdir.




**"Məktəb kurikulumları". Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 216 səh.**

*Nəşrə hazırlayanlar: Bibixanım İbadova, Humay Cəbiyeva, Günay Məmmədova.*
*Elmi redaktor: Ənvər Abbasov*

Kitab Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişi ilə 2013-cü ildə Təhsil Problemləri İnstitutunda məktəb kurikulumlarına aid aparılmış tədqiqata əsasən hazırlanmışdır. Kitaba riyaziyyat, fizika və biologiya fənləri üzrə məktəb kurikulumları daxil edilmişdir. Bu zaman müəllimlərin yeni fənn kurikulumları ilə işləyərkən qarşılaşdıqları çətinliklər nəzərə alınmış, onların aradan qaldırılması üçün müvafiq strategiyalar hazırlanaraq tövsiyə olunmuşdur. Fənlər üzrə məktəb kurikulumlarında ümumi xarakterik cəhətlər olsa da onlar mahiyyət və məzmun etibarı ilə fənnin xarakterinə uyğun xüsusiyyətləri ehtiva edir.

Kitabdan təhsil sahəsində tədqiqat aparanlar, həmçinin fənn kurikulumlarını tətbiq edən müəllimlər, məktəb rəhbərləri istifadə edə bilərlər.




**"İbtidai siniflərdə fənn kurikulumlarının tətbiqi nəticələrinin təhlili". Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 212 səh.**

*Nəşrə hazırlayanlar: Bibixanım İbadova, İlham Cavadov, Humay Cəbiyeva, Günay Məmmədova.*
*Elmi redaktor: Ənvər Abbasov.*

Kitab 2012-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişinə əsasən Təhsil Problemləri İnstitutunda aparılmış "İbtidai siniflərdə fənn kurikulumlarının tətbiqi nəticələrinin təhlili" mövzusunda tədqiqatın nəticələrinə əsasən hazırlanmışdır. Tədqiqat zamanı Azərbaycan dili, riyaziyyat fənləri üzrə əldə edilmiş təcrübələrə istinad olunmuşdur. İlkin olaraq tədqiqatın meyarları müəyyənləşdirilmiş, məzmun standartlarının ibtidai sinif şagirdlərinin səviyyəsinə uyğunluğu, müasir təlim strategiyalarından istifadə və şagird nailiyyətlərinin qiymətləndirilməsi vəziyyəti öyrənilmiş və onların nəticələrinə aid materiallar kitaba daxil edilmişdir.




**"Pedaqoji internatura". Bakı, Mütərcim, 2015, 47 səh.**

*Müəllif: Akif Abbasov.*
*Elmi redaktor: Hikmət Əlizadə.*

Kitabçada pedaqoji internaturanın müəllim hazırlığında yeri və əhəmiyyəti diqqət mərkəzinə gətirilir. Pedaqoji təcrübə gələcək müəllimlərin peşəyə hazırlanmasının, internatura isə diplomdansonrakı kadr hazırlığının etibarlı vasitəsi kimi nəzərdən keçirilir. İnkişaf etmiş ölkələrdə pedaqoji internatura haqqında məlumat verilir, pedaqoji internaturanın məqsədi, qarşısında duran vəzifələr, pedaqoji internaturada tədris-praktik fəaliyyətin təşkili kimi zəruri məsələlər üzərində dayanılır. Pedaqoji internaturanın təşkili, onun səmərəli fəaliyyət göstərməsi üçün təkliflər irəli sürülür. Vəsaitdə, həmçinin pedaqoji internaturanın əsasnaməsinin layihəsi öz ifadəsini tapmışdır. Kitabça ali məktəblərin pedaqoji kollektivləri, müəllimlər, təhsil işçiləri, pedaqoqlar, fəlsəfə və elmlər doktoru proqramları üzrə fəaliyyət göstərən doktorant və dissertantlar üçün nəzərdə tutulmuşdur.




**"Kitabi-Dədə Qorqud" dastanında mənəvi tərbiyə məsələləri". Bakı, Mütərcim, 2015, 148 səh.**

*Müəllif: Pərişan Həsənova.*
*Elmi redaktor: Əjdər Ağayev.*

Kitabda "Kitabi-Dədə Qorqud" dastanı etnopedaqoji abidə kimi əsaslandırılmış, bu gün üçün böyük əhəmiyyət daşıyan mənəvi tərbiyə məsələləri geniş şərh olunmuşdur. Monoqrafiyada "Kitabi-Dədə Qorqud" dastanının meydana çıxdığı tarixi şərait və Oğuzlar problemi, dastandakı pedaqoji ideyaların müasirlik çalarlarından bəhs edilir. Eyni zamanda "Kitabi-Dədə Qorqud"da vətənpərvərlik, yoldaşlıq, dostluq, sədaqət, yaxşılıq, xeyirxahlıq, düzlük və doğruçuluq, böyüyə, ata-anaya, müdrik şəxslərə hörmət kimi tarixən Azərbaycan xalqına məxsus olan mənəvi dəyərlər üzərində dayanılır.




**"Ümumtəhsil məktəbləri üçün yeni təhsil proqramları (kurikulumları) üzrə təlim materiallarının təxmini planlaşdırılması (IV sinif)". Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 54 səh.**

*Tərtibçilər: İlham Cavadov, Bibixanım İbadova.*
*Elmi redaktor: Ənvər Abbasov.*

Ümumtəhsil məktəbləri üçün yeni təhsil proqramları (kurikulumları) üzrə təlim materiallarının təxmini planlaşdırılması (IV sinif) Azərbaycan dili, riyaziyyat, informatika, həyat bilgisi, texnologiya, fiziki tərbiyə, təsviri incəsənət, musiqi fənləri üzrə hazırlanmışdır.

Planlaşdırma nümunəsi hazırlanarkən ümumtəhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları), müvafiq fənlər üzrə təhsil proqramları (kurikulumlar) və dərsliklər nəzərə alınmışdır. Eyni zamanda, müəllimlərin tədris fəaliyyətini planlaşdırarkən çətinlikləri diqqət mərkəzində saxlanılmışdır.

Planlaşdırma nümunələri istiqamətverici xarakterə malik olub IV sinifdə müvafiq fənləri tədris edən müəllimlər üçün nəzərdə tutulmuşdur. Ondan təcrübə keçən tələbə və magistrlər, ixtisasartırma kurslarının müdavimləri də istifadə edə bilərlər.




**"Ümumtəhsil məktəbləri üçün yeni təhsil proqramları (kurikulumları) üzrə təlim materiallarının təxmini planlaşdırılması (VIII sinif)". Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 55 səh.**

*Tərtibçilər: İlham Cavadov, Bibixanım İbadova.*
*Elmi redaktor: Ənvər Abbasov.*

Ümumtəhsil məktəbləri üçün yeni təhsil proqramları (kurikulumları) üzrə təlim materiallarının təxmini planlaşdırılması (VIII sinif) Azərbaycan dili, ədəbiyyat, literatura, russkiy yazık, Azərbaycan tarixi, ümumi tarix, coğrafiya fənləri üzrə hazırlanmışdır. Planlaşdırma nümunəsi hazırlanarkən səkkizinci siniflərə aid məzmun standartları, yeni təlim strategiyaları əsas götürülmüş, mövcud dərsliklər nəzərə alınmış, qabaqcıl müəllimlərin təcrübəsinə istinad olunmuşdur. Planlaşdırma nümunələri istiqamətverici xarakterə malik olub VIII sinifdə müvafiq fənləri tədris edən müəllimlər üçün nəzərdə tutulmuşdur. Ondan təcrübə keçən tələbə və magistrlər, ixtisasartırma kurslarının müdavimləri də istifadə edə bilər.